# Dəyərli ziyalı və alim

## Xeyirxah insan, folklorşünas-alim Məhərrəm Cəfərlinin 70 yaşına borc və ehtiram yazısı

**Yaşadığı 66 illik ömür payının 40 ildən artığını ali və orta məktəb müəllimliyində keçirmiş xeyirxah insan, folklorşünas-alim, filologiya elmləri doktoru, professor Məhərrəm Cəfərli bütün əməlləri ilə özünü yaddaşlarda örnək bir səviyyədə həkk etdirə bilmişdi. Belə bir dəyərli şəxsiyyət 4 ildir ki, haqq dünyasına qovuşub.**

Məhərrəm Cəfərli 1946-cı ilin yanvar ayının 5-də Naxçıvan MR Şərur (indi Kəngərli) rayonunun Xok kəndində dünyaya göz açmışdı. Həmin dövrdə 1941-1945-ci illər savaşını yola salmış insanlar elə yenə ac-yalavac bir həyat tərzində yaşamaqda davam edirdilər... Bəli, dünyaya yeni qədəm basmış gənc nəsil gələcəyə ümid və inamla çalışır və məktəbdə elm öyrənirdi. Məhərrəm Cəfərli (o zaman Cəfərov) də Xok kənd yeddiillik və qonşu Qıvraq kənd orta məktəblərində ümumi orta təhsil alıb Bakıya gəldi. Sevimli orta məktəb müəllimləri Vahab Hüseynov, Miryaqub Seyidov və başqalarının yolu ilə getmək arzusuna qovuşmaq üçün sənədlərini indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin (o zaman institut) dil-ədəbiyyat fakültəsinə təqdim etdi. Yüksək bal toplayıb tələbə adı qazandı. 1964-1969-cu illərdə tanınmış alimlər Məmmədhüseyn Təhmasib, Feyzulla Qasımzadə, Əbdüləzəl Dəmirçizadə, Şükür Sadıqov, Hüseyn Əhmədov və başqalarından qazandığı bilik və məlumatlarla ali məktəbi başa vurub 1969-1970-ci illərdə həqiqi hərbi xidmətdə oldu. Gənc müəllim əsgərlikdən sonra vaxtilə oxuduğu doğma Xok kənd orta məktəbinə dil-ədəbiyyat müəllimi təyin olunur. 1970-1971-ci dərs ilində öz müəllimləri ilə çiyin-çiyinə çalışması onun həyatının ən unudulmaz və yaddaqalan hadisəsinə çevrildi. Qardaşı Fəxrəddin Şahbuz rayon ticarət idarəsində rəhbər vəzifədə çalışdığından may ayından onun yanına gedir və o zaman "Qabaqcıl" adı ilə buraxılan bölgə qəzetində işə girir. Sentyabr ayında M.Cəfərli üçün daha əlverişli bir xoş soraq gəlir - onu APİ-nin Naxçıvan filialında işə dəvət edirlər. Elə o dövrdən qonşu kəndli kimi tanışlığımız başlandı. İndiki NDU-nun əyani şöbəsinin ilk 103 nəfər tələbəsindən biri olduğum üçün Məhərrəm müəllimi məzunların diplomlarını yazdığı zaman tanıdım, Qarabağlar kəndindən olduğumu söylədim. Kəndimizdən bir neçə müəllimim ona da Xokda dərs demişdi. Beləliklə, xeyirxah insan M.Cəfərlinin qayğı və köməyindən mən də xeyli bəhrələndim... O, NDU-da əvvəl metodist, sonra müəllim işlədi. İşıqlı ziyalı düz 40 ildən artıq bu ali təhsil ocağında pedaqoji institut və universitet mərhələlərində də çalışmış və bir çox uğurlara imza atmış-elmlər doktoru, professor olmuşdur. M.Cəfərli AMEA-nın Folklor şöbəsində "Osman Sarıvəlli və xalq yaradıcılığı" mövzusunda namizədlik dissertasiyasını 1984-cü ildə müdafiə etmişdir. Bu uğurundan sonra o, zəngin folklorumuzun daha dərin qatlarının tədqiqi ilə 20 ilə yaxın elmi-nəzəri axtarışlar apararaq 2003-cü ildə "Azərbaycan məhəbbət dastanlarının poetikası" mövzusunda dissertasiya müdafiə edir və filologiya elmləri doktoru alimlik dərəcəsi alır. Bu illərdə o, NDU-nun Tarix-filologiya fakültəsinin dekanı, Ali Diplomatiya Kollecinin rektoru (1997-2003) vəzifələrinə irəli çəkilir. M.Cəfərli 2004-cü ildən ömrünün sonunadək NDU-nun professoru saxlanılmaqla AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Folklorşünaslıq şöbəsinin müdiri vəzifəsinə təyin olunur. Burada onun fəaliyyəti daha qaynar və səmərəli olur. Bir onillik ərzində məhsuldar elmi yaradıcılığına görə alimə "Qızıl qələm" mükafatı (2004), "Türk xalq kültürü və folkloruna xidmət" ödülü (2008), Avrasiya Dostluq Qurumunun mükafatı (2009) və başqa təltiflər verilmişdi. Bunlar da onun ölkəmizin hüdudlarından kənarlarda tanındığını təsdiqləyən tutarlı faktlardır. Üçcildlik "Naxçıvan folklor antologiyası"nın az vaxtda hazırlanıb nəşr olunması işi də professor M.Cəfərlinin rəhbərliyi və yaxından iştirakı ilə baş tutmuşdur. Azərbaycan Yazıçılar Birliyinin üzvü M.Cəfərli "Heydər Əliyev və milli-mənəvi irs", "Nuhdan və mifdən başlanan Naxçıvan", "Məhəbbət dastanlarının poetikası", "Azərbaycan dastanlarının struktur poetikası", "Dastan və mif" və başqa məqalə və monoqrafiyalarına görə AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə ictimai- humanitar elmlər üzrə "İlin alimi" elan olunmuş və mükafatlara layiq görülmüşdür. Qələmini publisistika sahəsində də işlədən M.Cəfərli Naxçıvan MR-in qabaqcıl müəllimlərinin haqqında həmkarı Abbas Hacıyev və tələbəsi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Cabir Hacıbəyli ilə həmmüəllif olaraq hazırladıqları "Nurlu ömürlər" kitabının birinci cildini 2000-ci ildə Bakıda "Çaşıoğlu" nəşriyyatında və 2002-ci ildə ikinci cildini Naxçıvanda "Əcəmi" nəşriyyatında çap etdirmiş və həmkəndlisi ilə hərəsi bir cildin nəşr xərcini ödəmişlər. Bu işi kitabda haqqında ilk oçerk verilmiş orta məktəb müəllimləri Mir Yaqub Seyidovun ruhuna xatir etmişlər. Ümumiyyətlə, M.Cəfərlinin xarakterində səxavətlilik və xeyriyyəçilik vardı. Onun neçə imkansıza əl tutduğunun və bunu təmənnasız etdiyinin şahidi olmuşuq. Doğma kəndi Xokda yol və su çəkilişinə də xeyli xərc çəkdiyini çox eşitmişik. Dini ziyarətlərə - Kərbəla, Həcc və Məşhədə getmişdi, oruc və namaza da öz vaxtında riayət edirdi... Professor M.Cəfərli 2012-ci ilin 11 fevralında Ankarada ürək əməliyyatı zamanı dünyasını dəyişmiş və öz vəsiyyətilə Xok kənd qəbiristanlığında dəfn olunmuşdur. Bütün kənd ictimaiyyəti , Naxçıvan Dövlət Universiteti və bu diyardakı digər ali məktəblərin çoxsaylı əməkdaşları dəfndə iştirak edərək öz həmkarlarına-tanınmış ziyalıya sonsuz hörmət və ehtiramlarını bir daha geniş nümayiş etdirmişlər. Ulu Yaradanın alın yazısı ilə orta yaş səviyyəli ömrü sağlığında 70 illiyini görməyə ona imkan vermədi. Qoy bu yazımız da bir borc və ehtiramımız kimi onun yetmiş illiyinə ünvanlansın. Ruhu şad olsun!




**Hacı Tofiq SEYİDZADƏ**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***